

# Azərbaycan Tibb Universiteti
# İctimai Səhiyyə Fakültəsi

## İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının
## 2018/2019-cu tədris ilində fəaliyyəti barədə



# H E S A B A T











17.09.2018

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında kollektiv tədbiri keçirilib**

Sentyabrın 17-də İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında 2018-2019-cu tədris ilinin payız semestrində kollektiv qarşısında duran vəzifələrlə bağlı tədbir keçirilib. Tədbiri kafedranın müdiri, professor Rafiq Çobanov açaraq yeni tədris ilinin başlanması münasibəti ilə kollektivi təbrik edib. O, yeni tədris ilində bir sıra yeniliklərin olacağını, tələbələrə bir sıra yeni ixtisasların, o cümlədən səhiyyə meneceri ixtisasının öyrədiləcəyini qeyd edərək, sözü tədris işləri üzrə kafedra müdirinin köməkçisi, t.ü.f.d., baş müəllim Kamran Babayevə verib.

K.Babayev də çıxışında yeni dərs ilində müəyyən dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib. Rəhbərliyin göstərişi ilə bu ildən etibarən kurasiyanın ləğv olunduğunu və praktik məşğələ sisteminə keçildiyini bildirib. Elə bu səbəbdən hər bir müəllimin sillabusunun yenilənəcəyini qeyd edib.

K.Babayev həmçinin dərs yükünə, tələbələrin dərsə davamiyyətinə, fərdi iş planının və elektron jurnalların hazırlanması məsələsinə də geniş toxunub: "Bu ildən etibarən mühazirənin davamiyyəti ayrıca hesablanacaq, yəni mühazirədən dərs buraxma 40% olduqda tələbə imtahana buraxılmayacaq. İlk həftədən tələbələrə bu barədə məlumat verilməlidir.

Hesab edirəm ki, rəhbərliyin bu addımı təqdirəlayiqdir, çünki yuxarı kurslar çox vaxt mühazirələrdə iştirak etmirdilər və davamiyyət balı ümumilikdə 25%-lə hesablanırdı. İndi tələbə başa düşəcək ki, praktikadan olan müvəffəqiyyət göstəricisi yuxarı olsa belə, mühazirədən davamiyyəti 40%-i keçdisə, imtahana buraxılmayacaq"-deyən K.Babayev həmçinin imtahanlarla bağlı dəyişikliklərdə yeni sistemin və Elektron Universitetin yaradılması məsələsindən də söhbət açıb və bu sistemin hələ ki, I kurslara şamil olunacağını qeyd edib.
Kafedranın dosenti Anar Ağayev də öz çıxışında universitetdə aparılan islahatları və edilmiş yeniliklər təqdir edib. Kafedranın əməkdaşlarına bəzi tövsiyələrini veribdir.







# Professor R.Ə. Çobanovun rəhbərliyi ilə nəşr olunmuş dərsliklər və vəsaitlər (tədris-metodik işlər)







kafedranın auditoriya fondu









# Hesabat ili ərzində kafedra əməkdaşlarının vəzifə ştatı

| Sıra №-si | Soyadı, adı, atasının adı | Vəzifələri | Elmi adı, elmi dərəcəsi | Tutduğu ştat vahidi |
|---|---|---|---|---|
| 1 | Çobanov R.Ə. | Kafedra müdiri, Professor | Prof., t.e.d. | 0.5 |
| 2 | Ələkbərov M.M. | Professor | Prof., t.e.d. | 0.25 |
| 3 | Ağayev A.Ə. | Dosent | Dos.,t.ü.f.d. | 0.5 |
| 4 | Babayev K.Ə. | THM, Baş müəl. | t.ü.f.d. | 0.5 |
| 5 | Paşayeva P.H. | Dosent | Dos.,t.ü.f.d. | 0.5 |
| 6 | Məhərrəmov M.Ə. | Dosent | Dos.,t.ü.f.d. | 1.0 |
| 7 | Liftiyev R.B. | Dosent | Dos.,t.ü.f.d. | 1.0 |
| 8 | Nağıyeva R.Q. | Baş müəllim | t.ü.f.d. | 1.0 |
| 9 | Cabbarova N.R. | Baş müəllim | t.ü.f.d. | 1.0 |
| 10 | Məmmədov F.F. | Baş müəllim | tarix.ü.f.d. | 1.0 |
| 11 | Hacıyeva Y.H. | Baş müəllim | t.ü.f.d. | 0.5 |
| 12 | Vəliyev B.Ə. | Assistant | t.ü.f.d. | 0.5 |
| 13 | Məmmədova S.H. | Assistant | t.ü.f.d. | 0.5 |
| 14 | Babayev P.N. | Assistant | - | 1.0 |
| 15 | Mehdiyeva A.F. | Assistant | - | 0.5 |
| 16 | Musayev R.H. | Assistant | - | 0.5 |
| 17 | Əliyeva K.M. | Assistant | - | 0.5 |
| 18 | Rəsulova R.İ. | Assistant | - | 0.5 |
| 19 | Cəfərova A.H. | Assistant | - | 0.5 |
| 20 | Tağıyeva A.Ə. | Assistant | - | 0.5 |
| 21 | Babayeva A.C. | Assistant | - | 0.5 |
| 22 | Bədəlova A.O. | Assistant | - | 0.5 |
| 23 | Həbibova K.H. | Assistent | - | 0.5 |
| *24* | *Rəsulzadə G.S.* | *Baş laborant* | - | *0.5* |
| *25* | *Əliyeva G.Q* | *Baş laborant* | - | *0.5* |
| *26* | *Hüseynova S.İ.* | *Laborant* | - | *Sosial məzuniyyət* |
| *27* | *Qadaşova P.T.* | *Laborant* | - | *1.0* |
| *28* | *Hüseynova Ü.E* | *Laborant* | | *1.0* |
| *Cəmi* | | | | *18,75* |

# *Kafedranın kadr potensialı*

| Kafedra əməkdaşlarının tərkibi | | Sayı | | Cəmi ştat |
|---|---|---|---|---|
| Pedaqoji heyət | T.ü.e.d., professor | 3 | 1.25 | 14,25 |
| | T.ü.f.d., dosent | 5 | 4.0 | |
| | T.ü.f.d., baş müəllim | 3 | 2.5 | |
| | T.ü.f.d., assistent | 11 | 6.5 | |
| Texniki heyət | Baş Laborant | 3 | 1.5 | 4,5 |
| | Laborant | 3 | 3.0 | |
| Cəmi | | 28 | 18.75 | 18.75 |

# 2018/2019-cu tədris ilinin payız semestrində tələbə və qrup birləşmələrinin sayı

| I MPF | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Qr Sayı Cəmi** | Azərbaycan bölməsi | İngilis bölməsi | Rus bölməsi | Tələbələrin sayı | | | |
| | | | | Azərb. bölm | İng. b | Rus b | Cəmi |
| **28** | 24 | - | 4 | 283 | - | 50 | 333 |
| **II MPF** | | | | | | | |
| **31** | 27 | 4 | - | 316 | 36 | - | 352 |
| **İSF** | | | | | | | |
| **7** | 6 | - | 1 | 78 | - | 3 | 81 |
| **66** | 57 | 4 | 5 | 677 | 36 | 53 | 766 |

Mühazirələr

| Fakultələr | Cəmi | Azərbaycan | Rus | İngilis |
|---|---|---|---|---|
| **I MPF** | 5 | 4 | 1 | - |
| **II MPF** | 5 | 4 | - | 1 |
| **İSF** | 2 | 1 | 1 | - |
| **CƏMİ** | 12 | 9 | 2 | 1 |

2018/2019-cu tədris ilinin **Payız semestrində** fakültələr üzrə imtahanlar aşağıdakı kimi nəticələnmişdir

**I Müalicə profilaktika Fakültəsinin IV kursunda** "ictimai sağlamlıq və səhiyyənin təşkili" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr belə olmuşdur: (tarix: 07.01.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 314

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A-171 |
| 81-90 bal (Çox yaxşı) | | B- 65 |
| 71-80 bal (Yaxşı) | | C- 43 |
| 61-70 bal (Kafi) | | D- 25 |
| 51-60 bal (Qənaətbəxş) | | E- 8 |
| 0-50 bal (Qeyri kafi) | | F- 2 |
| Gəlmədi: | | 4 |
| Buraxılmadı: | | 12 |
| Dərsə davamiyyət: | B (d.d.) 4 | |
| Kredit borcu: | B (k.b.) 7 | |
| Təhsil haqqı: | B (t.h.) 1 | |

**Kəmiyyət 99.36 %.** **Keyfiyyət 88.85 %;**
**(Ötən il müvafiq olaraq: 95.7%, 93.1%)**

**II Müalicə profilaktika Fakültəsinin IV kursunda** "ictimai sağlamlıq və səhiyyənin təşkili" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 11.01.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 331

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A-194 |
| 81-90 bal (Çox yaxşı) | | B- 66 |
| 71-80 bal (Yaxşı) | | C- 50 |
| 61-70 bal (Kafi) | | D- 17 |
| 51-60 bal (Qənaətbəxş) | | E- 3 |
| 0-50 bal (Qeyri kafi) | | F- 1 |
| Gəlmədi: | | 1 |
| Buraxılmadı: | | 12 |
| Dərsə davamiyyət: | B (d.d.) 5 | |
| Kredit borcu: | B (k.b.) 6 | |
| Təhsil haqqı: | B (t.h.) 1 | |

**Kəmiyyət 99.7 %.** **Keyfiyyət 93.66 %;**
**(Ötən il müvafiq olaraq: 96.3%, 91.7%)**

**İctimai Səhiyyə Fakültəsinin IV kursunda "İctimai sağlamlıq və tibbi statistika"** fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 03.01.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 74

| | |
|---|---|
| 91-100 bal (Əla) | A-56 |
| 81-90 bal (Çox yaxşı) | B-7 |
| 71-80 bal (Yaxşı) | C-7 |
| 61-70 bal (Kafi) | D-4 |
| 51-60 bal (Qənaətbəxş) | E-0 |
| 0-50 bal (Qeyri kafi) | F-0 |
| Gəlmədi: | 2 |
| Buraxılmadı: | 1 |
| Dərsə davamiyyət: | B (d.d.) 1 |
| Kredit borcu: | B (k.b.) 0 |
| Təhsil haqqı: | B (t.h.) 0 |

**Kəmiyyət 100 %.** **Keyfiyyət 94.59 %;**
**(Ötən il müvafiq olaraq: 97.4%, 98.7%)**

Ayrı-ayrı fakültələr üzrə
keyfiyyət göstəricisi

I mualicə-profilaktika fakültəsində 88,85%, *(Ötən il müvafiq olaraq: 93.1%)*

II mualicə-profilaktika fakültəsində 93.66% *(Ötən il müvafiq olaraq: 91.7%)* və

İctimai səhiyyə fakültəsində 94.59% *(ötən il müvafiq olaraq: 98,7%)* təşkil etmişdir.

## 2018/2019-cu tədris ilinin yaz semestrində tələbə və qrup birləşmələrinin sayı

| Qrup sayı Cəmi | Azərbaycan bölməsi | İngilis bölməsi | Rus bölməsi | Tələbələrin sayı | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Azərb. bölm | İng. b | Rus b | Cəmi |
| I MPF | | | | | | | |
| 30 | 27 | 3 | - | 331 | 34 | - | 365 |
| II MPF | | | | | | | |
| 28 | 24 | - | 4 | 303 | - | 51 | 354 |
| İSF | | | | | | | |
| 7 | 6 | - | 1 | 82 | - | 3 | 85 |
| STOM | | | | | | | |
| 17 | 11 | 5 | 1 | 129 | 59 | 10 | 198 |
| HTF | | | | | | | |
| 7 | 7 | - | - | 81 | - | - | 81 |
| 82 | 75 | 8 | 6 | 926 | 93 | 64 | 1083 |

## Mühazirələr

| Fakultələr | Cəmi | Azərbaycan | Rus | İngilis |
|---|---|---|---|---|
| I MPF | 5 | 4 | - | 1 |
| II MPF | 5 | 4 | 1 | - |
| İSF | 2 | 1 | 1 | - |
| Stom | 4 | 2 | 1 | 1 |
| HTF | 1 | 1 | - | - |
| CƏMİ | 17 | 12 | 3 | 2 |

2018/2019-cu tədris ilinin **Yaz semestrində** fakültələr üzrə imtahanlar aşağıdakı kimi nəticələnmişdir.

**I Müalicə profilaktika Fakültəsinin** III kursunda "ictimai sağlamlıq və tibbi statistika" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr belə olmuşdur: (tarix: 21.06.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 350

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A-207 |
| 81-90 bal (Çox yaxşı) | | B- 94 |
| 71-80 bal (Yaxşı) | | C- 29 |
| 61-70 bal (Kafi) | | D- 17 |
| 51-60 bal (Qənaətbəxş) | | E- 2 |
| 0-50 bal (Qeyri kafi) | | F- 1 |
| Gəlmədi: | | 6 |
| Buraxılmadı: | | 3 |
| Dərsə davamiyyət: | B (d.d.) 0 | |
| Kredit borcu: | B (k.b.) 3 | |
| Təhsil haqqı: | B (t.h.) 0 | |

**Keyfiyyət 94.29 %; Kəmiyyət 99.71 %.**

**II Müalicə profilaktika Fakültəsinin** III kursunda "ictimai sağlamlıq və tibbi statistika" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 21.06.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 349

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A-219 |
| 81-90 bal (Çox yaxşı) | | B - 81 |
| 71-80 bal (Yaxşı) | | C - 29 |
| 61-70 bal (Kafi) | | D - 14 |
| 51-60 bal (Qənaətbəxş) | | E - 4 |
| 0-50 bal (Qeyri kafi) | | F - 2 |
| Gəlmədi: | | 0 |
| Buraxılmadı: | | 2 |
| Dərsə davamiyyət: | B (d.d.) 1 | |
| Kredit borcu: | B (k.b.) 0 | |
| Təhsil haqqı: | B (t.h.) 1 | |

**Keyfiyyət 94.27 %; Kəmiyyət 99.43 %.**

**Stomatologiya Fakültəsinin** III kursunda "ictimai sağlamlıq və səhiyyənin təşkili" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 04.06.2019)

**İmtahanda iştirak edən tələbələrin sayı: 186**

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A - 84 |
| 81-90 bal (Çox yaxşı) | | B - 54 |
| 71-80 bal (Yaxşı) | | C - 22 |
| 61-70 bal (Kafi) | | D - 20 |
| 51-60 bal (Qənaətbəxş) | | E - 5 |
| 0-50 bal (Qeyri kafi) | | F - 1 |
| Gəlmədi: | | 0 |
| Buraxılmadı: | | 3 |
| Dərsə davamiyyət: | B (d.d.) 2 | |
| Kredit borcu: | B (k.b.) 0 | |
| Təhsil haqqı: | B (t.h.) 1 | |

**Keyfiyyət 86.02 %; Kəmiyyət 99.46 %.**

**İctimai Səhiyyə Fakültəsinin** IV kursunda "ictimai sağlamlıq və səhiyyənin təşkili" fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 18.06.2019)

**İmtahanda iştirak edən tələbələrin sayı: 73**

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A - 56 |
| 81-90 bal (Çox yaxşı) | | B - 12 |
| 71-80 bal (Yaxşı) | | C - 4 |
| 61-70 bal (Kafi) | | D - 0 |
| 51-60 bal (Qənaətbəxş) | | E - 1 |
| 0-50 bal (Qeyri kafi) | | F - 0 |
| Gəlmədi: | | 3 |
| Buraxılmadı: | | 0 |
| Dərsə davamiyyət: | B (d.d.) 0 | |
| Kredit borcu: | B (k.b.) 0 | |
| Təhsil haqqı: | B (t.h.) 0 | |

**Keyfiyyət 98.63 %; Kəmiyyət 100 %.**

**Hərbi Tibb Fakültəsinin** III kursunda “ictimai sağlamlıq və səhiyyənin təşkili” fənnindən kəmiyyət və keyfiyyət göstəriciləri haqqında nəticələr aşağıdakı kimi olmuşdur: (tarix: 21.06.2019)

İmtahanda iştirak edən tələbələrin sayı: 81

| | | |
|---|---|---|
| 91-100 bal (Əla) | | A - 33 |
| 81-90 bal (Çox yaxşı) | | B - 21 |
| 71-80 bal (Yaxşı) | | C - 17 |
| 61-70 bal (Kafi) | | D - 8 |
| 51-60 bal (Qənaətbəxş) | | E - 2 |
| 0-50 bal (Qeyri kafi) | | F - 0 |
| Gəlmədi: | | 0 |
| Buraxılmadı: | | 0 |
| Dərsə davamiyyət: | B (d.d.) 0 | |
| Kredit borcu: | B (k.b.) 0 | |
| Təhsil haqqı: | B (t.h.) 0 | |

**Keyfiyyət 87.65 %;** **Kəmiyyət 100 %.**

**Ayrı-ayrı fakültələrdə keyfiyyət göstəricisi**

**I mualicə-profilaktika fakültəsi üzrə 94.29%,**

**II mualicə-profilaktika fakültəsi üzrə 94.27%,**

**Stomatologiya Fakültəsində 86.02%,**

**İctimai səhiyyə fakültəsində 87.65%**

**Hərbi tibb fakültəsi 87.65% təşkil etmişdir.**

# 2018/2019-cu tədris ilində professor-müəllim heyəti tərəfindən yerinə yetirilmiş dərs yükü

| № | Müəllimlərin adı, soyadı | Semestrlər | | | |
|---|---|---|---|---|---|
| | | Payız | Yaz | cəmi | Plan üzrə |
| 1 | Kafedra müdiri, prof. Çobanov R.ə. | 115 | 135 | 250 | 250 |
| 2 | Prof. Ələkbərov M.M. | 51 | 74 | 125 | 125 |
| 3 | Prof. Ağayev A.ə. | 106 | 144 | 250 | 250 |
| 4 | Thm.,Dos. Babayev K.ə. | 106 | 147 | 253 | 250 |
| 5 | Dos. Paşayeva P.H. | 137 | 173 | 310 | 260 |
| 6 | Dos. Məhərrəmov M.ə. | 268 | 397 | 665 | 520 |
| 7 | Dos. Liftiyev R.B. | 226 | 428 | 654 | 520 |
| 8 | Dos. Nağıyeva R.Q. | 177 | 240 | 417 | 500 |
| 9 | Baş m. Cabbarova N.R. | 216 | 284 | 500 | 500 |
| 10 | Baş m. Məmmədov F.F. | 252 | 249 | 501 | 500 |
| 11 | Baş m.,Hacıyeva Y.H. | 129 | 227 | 356 | 260 |
| 12 | Ass. Vəliyev B.ə. | 108 | 142 | 250 | 250 |
| 13 | Ass. Məmmədova S.H. | 112 | 139 | 251 | 250 |
| 14 | Ass. Mehdiyeva A.F. | 116 | 57 | 173 | 250 |
| 15 | Ass. Musayev R.H. | 108 | 142 | 250 | 250 |
| 16 | Ass. Əliyeva K.M. | 28 | 0 | 28 | 250 |
| 17 | Ass. Rəsulova R.İ. | 106 | 148 | 250 | 250 |
| 18 | Ass. Babayev P.N. | 230 | 270 | 500 | 500 |
| 19 | Ass. Cəfərova A.H. | 189 | 224 | 413 | 500 |
| 20 | Ass. Tağıyeva A.ə. | 94 | 96 | 190 | 250 |
| 21 | Ass. Babayeva A.C. | 112 | 138 | 250 | 250 |
| 22 | Ass. Bədəlova A.O. | 110 | 204 | 314 | 260 |
| 23 | Ass. Həbibova K.H. | 84 | 16 | 100 | 250 |
| | Cəmi | 3180 | 4074 | 7254 | 7195 |

# Hesabat ilində professor-müəllim heyətinin **tədris-metodik iş** sahəsində fəaliyyətinin əsas istiqamətləri

- tələbələrin tədris fəaliyyətinin, dərslərə davamiyyət və mənimsənilməsinin yaxşılaşdırılması;
- müəllimlərin pedaqoji ustalığının və peşə hazırlığının artıtılması və təkmilləşdirilməsi;
- müasir və mütərəqqi metodların, informasiya texnologiyaları və vasitələrinin tədris prosesinə tətbiqi;
- dərs və metodik vəsaitlərin hazırlanması,
- onların tədrisə tətbiqi;
- tədrisin kəmiyyət və keyfiyyət göstəricilərini tənzim edən normalaşdırıcı, rəhbər, nəzarət və qeydiyyat-uçot sənədlərlə işlərin təşkili (tədris proqramları, imtahan sual və testləri, fərdi tapşırıqlar və s).

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi**

**Azərbaycan Tibb Universiteti**

UOT: 614

Dövlət qeydiyyatı № 01114084

«Təsdiq edirəm»

Azərbaycan Tibb Universitetin

rektoru, prof. G.Ç.Gəraybəyli

«_____» _______________ 2018

**İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasında**

**«Əhali arasında emosional-stress, depressivlik və həyacanlılıq təzahürlərinin yayılmasının sosial-gigiyenik aspektləri və onların qeyri-yoluxucu xroniki xəstəliklərin formalaşmasında rolu»** mövzusu üzrə 2018- cı il üçün aralıq

# H E S A B A T

Elmi işlər üzrə prorektor dos. Bəylərov R.O.

Elmi rəhbər prof. Çobanov R.Ə.

Məsul icraçı dos. Məhərrəmov M.Ə.

Bakı — 2018

## 2018-ci il üçün işin və mərhələlərin adı:

**İş:** "Emosional-stres, depresivlik və həyacanlılıq təzahürlərinin tibbi sosial əhəmiyyətinin araşdırılması, onların sağlamlığa, iş qabiliyyətinə, əhalinin həyat keyfiyyətinə təsirinin və QYXX-in formalaşmasında risk faktorları kimi rolunun öyrənilməsi"

**Mərhələ 1.** Emosional-stresin, depressiyanın və həyacanın əhali arasında müxtəlif xəstə-liklərin formalaşmasına təsiri.

**Mərhələ 2.** Emosional-stres, depressiya və həyacan hallarında olan əhali qruplarının sağlamlıq vəziyyətinin qiymətləndirilməsi.

**Mərhələ 3.** Emosional-stres, depressiya və həyacan təzahürlərinin müxtəlif səviyyələri fonunda əhalinin əmək itkilərinin xarakteri

**Mərhələ 4.** Emosional-stres, depressiya və həyacanın müxtəlif səviyyələrində əhalinin həyat keyfiyyətini əks etdirən göstəricilərin hesablanması

**Mərhələ 5.** Əhali arasında qeyri-yoluxucu xroniki xəstəliklərin formalaşmasında emosional-stresin, depressiyanın və həyacanın risk amilləri kimi rolu

**İşin növü:** tətbiqi

**Elmi rəhbər:** Kafedra müdiri, t.e.d., professor Çobanov R.Ə.

**Məsul icraçı:** T.e.n., dosent  Məhərrəmov M.Ə.

**İcra müddəti:** 2016-2020-ci illər

# Elmi kadrların hazırlanması

**1. Doktorluq dissertasiyaları**

***1.1. Mövzu: "Kənd rayonlarında vərəm əleyhinə tədbirlərin effektivliyini artırmaq üçün ixtisaslaşmış ftiziatrik yardımın təşkilinin elmi əsaslandırılması"***

***İcraçı: Doktorant, t.ü.f.d. Əliyev Ə.V. (03 iyul 2015-ci ildə n təsdiq olunub)***

**Elmi məsləhətçi:** professor Çobanov R.Ə.

**Təhsil müddəti:** 17.11.2014-17.11.2019

**Yerinə yetirilmə dərəcəsi:** Elmi iş yekunlaşıb, müdafiə ərəfəsindədir.

***1.2. Mövzu: "Hiperxolesterinemiya - səhiyyənin müasir qlobal tibbi-sosial problemi kimi". İcraçı: Kafedranın baş müəllimi, t.ü.f.d. Hacıyeva Y.H.***

**Elmi məsləhətçi:** professor Çobanov R.Ə.

**Elmi Şurada təsdiq olunma tarixi:** 21 sentyabr 2017-ci il

**Yerinə yetirilmə dərəcəsi:** Elmi iş 70% yerinə yetirilib

## Kafedrada tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya mövzuları

## (21.12.01“Səhiyyə və onun təşkili” ixtisası üzrə)

1. A.C.Babayevanın “**Медико-социальная значимость, качественно-количественная оценка факторов риска формирования артериальной гипертонии и мер по снижению их актив-ности среди женщин репродуктивного возраста**” mövzusunda elmi işi yekunlaşıb və müdafiə ərəfəsindədir.
2. A.F.Mehdiyevanın “**Məktəblilərin arasında arterial hipertoniyanın formalaşmasının risk amilləri, onun tibbi-sosial nəticələri və profilaktikasına dair səmərəli yanaşmaların əsaslandırılması**” mövzusunda İşi müdafiə ərəfəsindədir.
3. İ.F.İslamzadənin “**Aşağı fiziki aktivliyin əhalinin sağlamlığına, əmək qabiliyyətinə və həyat keyfiyyətinə ağırlaşdırıcı təsirinin öyrənilməsi və onun aradan qaldırılması yolları**” mövzusunda, Elmi iş başa çatdırılmışdır.
4. K.H.Həbibovanın “**Особенности контрацептивного поведения женщин и социально-гигиенические меры по его коррекции**” mövzusunda İşi 85,0%-ə qədər yerinə yetirilmişdir.

5. A.H.Cəfərovanın **“Artıq bədən çəkisinin və piylənmənin formalaşmasının risk amilləri və onların qadınların sağlamlığına təsirinin azaldılması mexanizmləri”** mövzusunda **İşi 70,0% yerinə yetirilmişdir**.
6. A.O.Bədəlovanın **“Əhali arasında emosional-stress təzahürlərinin yayılması səviyyəsinin tibbi-sosial qiymətləndirilməsi və ilkin tibb şəbəkəsi şəraitində onların profilaktikasının təşkili”** mövzusunda **İşi 60,0 % yerinə yetirilib**
7. A.Ə.Tağıyevanın **“Məktəblilər arasında artıq bədən kütləsinin (piylənmənin) yayılması, sağlamlıq vəziyyətinə təsiri və populyasiya səviyyəsində korreksiyasına dair tədbirlərin müqayisəli qiymətləndirilməsi”** mövzusunda **İşi 70,0% yerinə yetirilib**

# Çap olunmuş elmi işlər:

1. Məqalələr (cəmi) - 8

    1.1. Yerli nəşrdə - 4

    1.2. Xarici nəşrdə - 4

    (İmpakt faktorlu jurnallarda - 3)

2. Tezislər (cəmi) - 9

    2.1. Yerli nəşrlərdə - 5

    2.2. Xarici nəşrlərdə - 4

## Kafedra əməkdaşlarının ölkədə və xaricdə iştirak etdikləri elmi forumlar və konfranslar

1. "Təbabətin aktual problemləri 2018" Bakı 2018
2. Российский национальный конгресс кардиологов г. Москва, 2018
3. Международная научная конференция Радиобиология: актуальные проблемы» Беларусь, Гомель 2018
4. Всеукраїнськоі науково-практичноі конференціі молодых учених
5. «Медична наука в практику охорони здоров›я» Полтава, 17 листопад, 218 року0





**VII Annual İnternational Conference "Medicine pressing questions" Bakı, 2-3 may 2018 il (Beynəlxalq konfrans)**







# Təlimlər





«Səhiyyə sistemində
Islahatların idarə edilməsi.
Səhiyyə iqtisadiyyatı»
AR Səhiyyə Nazirliyinin
İctimai Səhiyyə və
İslahatlar mərkəzi
26-28 dekabr, 2018-ci il





«Azərbaycanda icbari tibbi sığorta
sisteminin tətbiqinə dəstək»
«Tibb təchizatçıları ilə müqavilələrin
bağlanması üzrə» təlim
4-7 mart 2019



# Professor Rafiq Çobanov beynəlxalq konfransda sədrlik etmişdir
## (VII Annual İnternational Conference "Medicine pressing questions" 2018)




Общественная Организация
«Молодые Врачи Азербайджана»
при официальном партнерстве
Западно-Казахстанского Государственного Медицинского Университета,
Харьковского Национального Медицинского Университета
и Нижегородской Государственной Медицинской Академии

**VII Ежегодная Международная Научно-Практическая Конференция**
**«АКТУАЛЬНЫЕ ВОПРОСЫ МЕДИЦИНЫ»**
**и**
**«СПУТНИКОВЫЙ ФОРУМ ПО ОБЩЕСТВЕННОМУ ЗДОРОВЬЮ И ПОЛИТИКЕ ЗДРАВООХРАНЕНИЯ»**

*2-3 мая 2018*
*г. Баку, Азербайджан*

**ПРОГРАММА КОНФЕРЕНЦИИ**

**CONFERENCE PROGRAMME**

Public Organization
"Young Doctors of Azerbaijan"
with official partnership of the
West-Kazakhstan Marat Ospanov State Medical University,
Kharkiv National Medical University,
& Nizhny Novgorod State Medical Academy

**VII Annual International Scientific-Practical Conference**
**«MEDICINE PRESSING QUESTIONS»**
**&**
**"SATELLITE FORUM ON PUBLIC HEALTH & HEALTHCARE POLITICS"**








90 il

1930-2020

Azərbaycan Tibb Universiteti

Tibb Universiteti Azərbaycan xalqına, respublikasına, millətimizə əvəzsiz xidmətlər göstəribdir



AZ | RU | EN | WEBMAIL | Axtar

UNİVERSİTET | RƏHBƏRLİK | BEYNƏLXALQ ƏLAQƏLƏR | TƏLƏBƏLƏR ÜÇÜN | ABİTURİENTLƏR ÜÇÜN | TİBBİ XİDMƏT | MƏTBUAT XİDMƏTİ | ATU 90

## Xəbərlər

17.06.2019

**ATU-nun nümayəndəsi Londonda keçirilən 15-ci Avropa Konqresində iştirak edib**

Azərbaycan Tibb Universitetinin (ATU) İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının baş müəllimi, tibb üzrə fəlsəfə doktoru Yaqut Hacıyeva 17-18 iyun 2019 tarixində Londonda keçirilən "Piylənmə və endokrinoloji məsələlərə dair 15-ci Avropa konqresi"ndə iştirak edib.

Baş müəllim Y.Hacıyeva konqresdə "Piylənmə və hiperxolesterinemiyanın qarşılıqlı asılılığının populyasion qiymətləndirilməsi" mövzusunda məruzə ilə çıxış edib.

Y.Hacıyeva çıxışında qeyri-infeksion xəstəliklərdə risk amillərinin birinin də piylənmə olduğunu vurğulayıb: "Hər il artıq çəki və ya piylənmə nəticəsində ən azı 2.8 milyon insan məhv olur. Piylənmə hallarının sayı son 30 il ərzində təxminən 2 dəfə artmışdır. Bu da öz növbəsində vaxtından əvvəl ölüm və əlillik ehtimallını artırır".

Dünyanın bir çox ölkələrindən mütəxəssis və tədqiqatçıların iştirak etdiyi konqresdə piylənmə və endokrinoloji problemlərin səbəbləri, risk amilləri və profilaktikası ilə bağlı müzakirələr aparılıb. Aparılan müzakirələr bir daha göstərib ki, bu qlobal problemlərin həllində birgə əməkdaşlığın müstəsna rolu vardır.








# Qeyri-infeksion xəstəliklərlə effektli mübarizə



**Müsahibimiz İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, professor Rafiq Çobanovdur.**

**- Hamıya məlumdur ki, "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı 2015-2020-ci illər üçün nəzərdə tutulub və biz 2020-ci ilin astanasındayıq, yəni artıq 4 ili arxada qoymuşuq. Bu sahədə görülən işlər barədə nə deyərdiniz? QİX-lə mübarizədə əsas istiqaməti nədə görürsünüz?**

- QİX-lə mübarizəyə dair Strategiyada olan tapşırıqlara əsasən bu mübarizədə iki istiqamət əsas götürülür. Birinci istiqamət QİX-in risk amillərinin aşkar edilməsi, öyrənilməsi, qiymətləndirilməsi və onların aradan qaldırılması mexanizmlərinin işlənib hazırlanması, ikinci istiqamət isə əhalinin profilaktik davranışını modifikasiya etmək, yəni onlara sağlam olmaq üçün nə etməli olduqlarını sadə, əlçatan və anlaşılan şəkildə başa salmaqdır (motivasiya).

Bizim kafedrada elmi rəhbərliyim altında ÜST-nın təklif və sərəncamlarını nəzərə alaraq əsas risk amillləri (hipertoniya, aşağı fiziki aktivlik, dislipidemiya, hipodinamiya, ABÇ (Artıq Bədən Çəkisi) və piylənmə, stress və s.) elmi-tədqiqat işləri əsasında öyrənilir. Hələ 2006-cı ildə kafedrada ürək-damar xəstəliklərinin əsas səbəbi olan və "gizli qatil" adı ilə tanınan hipertoniya sosial aspektdən ətraflı öyrənilmişdir. Hal-hazırda aparılan elmi araşdırmalar zamanı müəyyən etmişik ki, bütün dünyada olduğu kimi, Azərbaycan populyasiyası da etnik xüsusiyyətlərinə görə piylənməyə, ABÇ-nə çox meyllidir. Əhalinin 30%-dən çoxunda ABÇ və piylənmə müşahidə olunur və həmçinin hipodinamiya geniş yayılıb - əhalinin 40%-dən çoxu ümumiyyətlə az hərəkətlidir, qida rasionu düzgün təşkil olunmayıb, sağlam qidalanma və düzgün qida rejimi yoxdur. Məsələn, əhalinin əksəriyyəti qida rejiminə düzgün riayət etmir, yüksək kalorili qida məhsulları,"fast food" kimi ziyanlı qidalar yeyir. Digər tərəfdən bu qidalarla orqanizmə külli miqdarda xolesterin daxil olur. Bütün bunlar ateroskleroza, lipid mübadiləsinin pozulmasına, ABŞ və piylənməyə gətirib çıxarır. Bu vəziyyət xüsusilə digər risk amili olan hipodinamiya ilə müşayiət olunduqda enerji sərfi də azalır. Məlumdur ki, lipidlər, xüsusilə triqliseridlər orqanizmdə enerji daşıyıcısıdır. Enerji sərf olunmadıqda onlar depolarda yığılaraq piylənməyə səbəb olur. Apardığımız elmi araşdırmalar nəticəsində müəyyən etmişik ki, beynəlxalq standartlara görə insan sutkada 150 kkal enerji sərf etməlidir və tədqiqatlar göstərir ki, idmanla məşğul olmadıqda belə, gündə 1 saat mülayim templə piyada gəzmək bu enerjini sərf etməyə kifayət edir. Buna gündəlik riayət olunduqda insanlarda ABÇ və piylənmənin qarşısı alınır, eyni zamanda lipidlərin də sərf olunması müşahidə olunur.

Kafedrada öyrənilən QİX-in risk amillərindən biri də emosional stresdir. Stres xəstəliklərin yaranmasında müstəsna rol oynayan risk amillərindəndir. Müşahidələr göstərir ki, insanlar təkcə stres şikayəti ilə həkimə müraciət etmirlər. Amma xüsusi metodlar

siya xəstəlikləridir. Nə qədər ki, sivilizasiya inkişaf edir, bir o qədər də bu xəstəliklər yaranacaq. Bu xəstəliklərlə mübarizə 2020-ci ildə dayanmamalıdır. Biz əsas tövsiyələri ortaya çıxarırıq, 2020-ci ildən sonra bu tövsiyələr QİX-lə mübarizədə nəzərə alınmalıdır.

Bu xəstəliklərlə mübarizədə bizim tutduğumuz mövqe profilaktikadır. Klinikalar nə qədər çox olsa da, o fərdi halda kömək edir və yalnız xəstə insanları müalicə edir. Biz isə xəstəlik yaranmamışdan onunla mübarizəni əsas götürürük. Biz çalışırıq ki, populyasiya səviyyəsində bu xəstəliklərin mümkün dərəcədə qarşısını alaq. Belə profilaktik tədbirlər ilbəil bu xəstəliklərin azalmasına gətirib çıxaracaq. Heç olmasa ağırlaşmaların tezliyi (infarkt, insult, hipertonik kriz) azalacaq.

Bu işlərin hamısının əsasında o dayanır ki, əhalinin tibbi savadı çox aşağıdır. Onların əksəriyyətinin bu profilaktik vasitələrdən demək olar ki, xəbəri yoxdur (xəstəliklərin risk amili nədir, bu xəstəliklərdən neçə qorunmaq olar və s.) və ya əhali tibbi fəal deyil. Adı çəkilən Strategiyanı əldə əsas tutaraq biz əhali arasında kütləvi təbliğat aparmalıyıq. Bu işləri başlamışıq. Düzdür, bizim imkanlarımız çox məhduddur. Amma poliklinikalara, məktəblərə gedirik, valideynlərlə görüşürük, yaddaş kitabçaları paylamaq və s. kimi sadə yollarla (elmi əsaslandırılmış) sağlamlığı necə qorumağı başa salırıq. Bizim son 3-4 ildə apardığımız müşahidələr göstərir ki, həqiqətən də əhalinin savadı artdıqca onlar bunun faydasını görür və tibbi fəal olurlar, yəni poliklinikalara müraciət artır, onların dərman qəbuluna meylliliyi artır və bu da sağlamlığın əsas atributlarındandır. Çünki həkimə müraciət etmədikdə xəstəlik daha da ağırlaşır və müalicə də çətinləşir. İlkin simptomlar olduqda tez müraciət etmək lazımdır. Məsələn, biz təbliğ edirik ki, hər ailədə tonometr, qlikometr, XS-ni təyin edən portativ cihaz ("Accutrend plus") olsun. Hər kəs narahatlıq hiss edən kimi müayinə olunsun və təcili tədbir görülsün. Yəni vaxt itirməyərək həmin profil üzrə tez müraciət etsin.

**- QİX ilə mübarizədə yuxarıda sadaladığınız hansı risk amili əsas götürülməlidir?**

- Mübarizə ümumiləşdirilmiş şəkildə, yəni kompleks aparılmalıdır. Bir risk amili ilə mübarizə bu xəstəliklərin qarşısını ala bilməz. Müəyyən olunub ki, təkcə bir risk amili çox vaxt xəstəliyə gətirib çıxarmır, risk amilləri kompleks şəkildə təsir edir, qarşılıqlı əlaqədə bir-birinin təsirini artırırlar. Polietioloji təsir daha güclü olur, yəni onlar eyni vaxtda təsir etdikdə xəstəlik yaranır. Məsələn, bu ilin iyun ayında Londonda piylənməyə həsr olunmuş beynəlxalq konfransda bizim kafedranın əməkdaşı, tibb üzrə fəlsəfə doktoru Yaqut Hacıyevanın təqdim etdiyi "Piylənmə və hiperxolesterinemiyanın qarşılıqlı asılılığının populyasion qiymətləndirilməsi" adlı çıxışı böyük maraqla qarşılandı və xüsusi sertifikata layiq görüldü. Başqa ölkələrdən də iştirak dəvətləri almışıq. Bizim elə əsas məqsədimiz də odur ki, bu xəstəliklərin ümumi risk amillərini tapaq və onların inteqrasiyalı kompleksini yaradaq, yəni onları aradan qaldırmaqla QİX-lərin, xüsusilə də ürək-damar xəstəliklərinin inkişafının qarşısını alaq ( HXS, hipodinamiya).

**-Qeyd etdiklərimizdən əlavə kafedranızın praktiki işləri də olubmu?**

- Bakı şəhərində, Quba rayonunda, məktəblərdə, müəyyən təşkilatlarda, ASAN xidmət və s. kimi yerlərdə tədbirlərimiz və təxminən 30 mindən çox əhali ilə maarifləndirici görüşlərimiz olub. Bundan başqa elmi-tədqiqat işləri zamanı aldığımız nəticələr əsasında metodik tövsiyələr hazırlayaraq müvafiq qurumlara təqdim edirik. Məsələn, əhali arasında hipertoniyanın gizli formalarını aşkar etmək üçün alqoritm hazırlamışıq, Quba rayonunda vərəmlə mübarizə üçün mobil texnologiyaların tətbiqi bu sahədə elmi əsaslandırılmış bir yenilikdir və nəinki bizim respublikada, hətta başqa ölkələrdə də böyük maraqla qarşılanmışdır. Bizim bütün praktik işlərimiz elmi əsaslandırılır və QİX-lə mübarizə istiqamətində elmi araşdırmalarımız hələ də davam edir.

**Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

## Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün STRATEGİYA

# Tələbə elmi cəmiyyətinin işi haqqında



*. 1. “Şəhər əhalisi arasında xroniki qeyri-infeksion xəstəliklərin formalaşmasına depressiv və həyəcan təzahürlərinin təsirinin bəzi aspektləri”*

Məruzəçilər: Səlimli Pərvanə, Quliyev Nicat

Fakültə: İctimai səhiyyə, IV kurs, Qrup 625a

Elmi rəhbər: Dos. M.Ə.Məhərrəmov

*2. “Artıq bədən çəkisi və piylənməsi olan məktəblilərin həyat keyfiyyətinin qiymətləndirilməsi”*



Məruzəçi: Əzizli Lamiyə İ.

Fakültə: I MPF, III kurs, Qrup 117A-2

Elmi rəhbər: Dos., Liftiyev R.B., Ass. Tağıyeva A.Ə.

*3. “Xroniki yorğunluq sindromunun dünya əhalisi arasında yayılması və profilaktikası”*

Məruzəçilər:Mirzəyeva Saniyə

Fakültə: İctimai səhiyyə, IV kurs, qr. 625b

Elmirəhbər: Ass. Mehdiyeva Arzu



*4. “Stomatoloji manipulyasiya zamanı ilkin tibbi yardımın təşkili”*

Məruzəçilər: Məmmədov Pərviz Məzahir o.Fakültə: II MPF, qrup 363a

Dadaşov Elcan Davud o. Stomatologiya f., qrup 780a

Elmi rəhbər: Ass. Məmmədova S.H.

# Səhiyyə orqanlarına kömək

- ***Kafedranın müdiri prof. Çobanov R.ə.*** V.Axundov adına Milli Tibbi Profilaktika İnstitutunun Parazitoloji və Helmintoloji xəstəliklər laboratoriyası əməkdaşlarına, ayrı-ayrı xəstəxana və poliklinika həkimlərinə, bu yönümlə aparılan elmi tədqiqat işlərinə yaxından kömək göstərmişdir. Əhali arasında parazitar xəstəliklərin mühüm sosial gigiyenik problem olması ilə əlaqədar olaraq, xüsusilə uşaq əhalisi və uşaq müəssisələrində çalışan mütəxəssislərə, qadın məsləhətxanası və doğum evlərinin baş həkimlərinə, mama-ginekoloqlarına praktik kömək göstərir.
- ***Kafedranın professoru Ələkbərov M.M.*** Bakı şəhəri və rayon miqyasında GEM-nə təşkilati metodik yardım göstərmişdir.
- ***Kafedranın əməkdaşlarından Y.H.Hacıyeva*** (Quba rayonu), ***A.F.Mehdiyeva*** Bakı şəhərində yerləşən xəstəxana və poliklinikalara vaxtaşırı baş çəkir, baş həkimlərə təşkilati məsələlərdə yardım göstərmişlər.
- ***Kafedranın doktorantı İslamzdə F.İ.*** və ***assistenti Bədəlova A.O.*** Bakı ş. Yasamal rayonu 3 saylı Şəhər poliklinikasında elmi tədqiqat işləri aparmışlar.

# İctimai işlər

- **Prof. Çobanov R.Ə.** kaf. müdiri ATU-nun və fakültə Elmi Şurasının üzvü olub müdafiə Şuralarında, aprobasiyalarda fəal iştirak edir, dissertasiyalar, rəylər verir, kafedra daxilində aparılan dissertasiya işlərinə rəhbərlik edir, kənar idarə və təşkilatların nəzdində yerinə yetirilən dissertasiyalara rəy verməklə bərabər rəsmi opponent təyin edilir, müdafiə Şuralarında böyük fəallıqla iştirak edir, Azərbaycan Respublikası Səhiyyə Nazirliyində Sertifikasiya Komissiyasının üzvü, Azərbaycan Elmlər Akademiyasının Zoologiya İnstitutunda Elmi Şuranın üzvüdür.
- **Prof. Ələkbərov M.M.** Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında ekspert şurasının üzvüdür.
- **Prof. Ağayev A.Ə.** İctimai Səhiyyə fakültəsinin dekanıdır.
- **Dos. Babayev K.Ə.** kafedranın tədris hissə müdiridir və Stomatologiya fakültəsinin dekan müavini vəzifəsini icra edir.
- **Dos. Liftiyev R.B.** Ə.Əliyev adına Azərbaycan Respublikası Həkimləri Təkmilləşdirmə İnstitutu nəzdində 3212.01 Aprobasiya Şurasının üzvü, ATU-da Dissertasiya işlərinin ilkin yoxlanması komissiyasının üzvü, kafedra Qrup Həmkarlar Təşkilatının sədridir.
- **Baş müəl. Y.H.Hacıyeva** İctimai Səhiyyə fakültəsi Elmi Şurasının elmi katibidir.
- **Ass. Babayeva A.C.** Beynəlxalq Əlaqələr Şöbəsində Mübadilə proqramları üzrə kurator

# Görkəmli tibb alimi, bacarıqlı səhiyyə təşkilatçısı

**Azərbaycan səhiyyəsində uzun müddət çalışan tanınmış tibb alimi və pedaqoqu, Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, tibb elmləri doktoru, professor Rafiq Çobanovun 75 yaşı tamam oldu.**

Rafiq Ənvər oğlu Çobanov 1944-cü il avqustun 13-də Bakı şəhərində doğulub. O, 1961-ci ildə orta təhsilini başa vuraraq sanitariya-gigiyena fakültəsinə daxil olmuş və 1967-ci ildə oranı bitirdikdən sonra S.M.Kirov adına Elmi-Tədqiqat Tibbi Parazitologiya və Tropik Təbabət İnstitutunda kiçik elmi işçi vəzifəsində əmək fəaliyyətinə başlamışdır. Burada kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya və şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifəsinə qədər yüksələn R.Çobanov 1976-cı ildə namizədlik, 1986-cı ildə isə doktorluq dissertasiyasını müdafiə etmiş və 1991-ci ildə professor elmi adını almışdır. R.Çobanov 1989-2005-ci illərdə indiki V.Axundov adına Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır.

2005-ci ildə müsabiqə yolu ilə ATU-nun İctimai sağlamlıq və səhiyyənin təşkili kaferasının müdiri seçilən professor R.Çobanov hazırda da bu vəzifədə çalışmaqdadır.

Rafiq müəllim çalışdığı bütün illər ərzində öz geniş elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyəti ilə seçilir. İndiyədək onun 250-dən çox elmi əsəri, o cümlədən 6 monoqrafiya, 10 dərslik və dərs vəsaiti dərc olunmuşdur. Bunlardan əlavə, o, 24 metodik vəsaitin, 8 səmərələşdirici təklifin müəllifidir.

Professor R.Çobanov həm də elmi-tibbi kadrların hazırlanmasında öz məhsuldarlığı ilə seçilir. Bu günə qədər onun rəhbərliyi altında 30 namizədlik və 8 doktorluq dissertasiyası müdafiə olunmuşdur. Rafiq müəllimin ictimai fəaliyyəti də olduqca genişdir. O, 1991-2003-cü illərdə Prezident yanında Ali Attestasiya Komissiyasının eksperti olmuş, Səhiyyə Nazirliyi nəzdində Attestasiya və Sertifikasiya Komissiyasının sədri vəzifəsində çalışmışdır. Hal-hazırda Rusiya, Qazaxıstan və



Azərbaycanda dərc edilən bir sıra elmi jurnalların redaksiya heyətlərinin üzvüdür.

Məhsuldar elmi, pedaqoji və ictimai fəaliyyəti nəticəsində professor R.Çobanov tibb işçiləri, elm adamları, professor-müəllim və tələbə heyəti arasında böyük nüfuz qazanmış, bacarıqlı təşkilatçı-rəhbər kimi özünü təsdiq etmişdir. Eyni zamanda, çalışdığı kollektivin hər bir əməkdaşına öz diqqət və qayğıkeşliyini göstərərək onlar arasında böyük hörmət qazanmışdır.

Gözəl pedaqoq, görkəmli tibb alimi və səhiyyə təşkilatçısı olan professor R.Çobanovu anadan olmasının 75 illiyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı və yeni-yeni uğurlar arzu edirik.

*İctimai sağlamlıq və səhiyyənin təşkili kaferasının əməkdaşları*

**Diqqətinizə görə təşəkkür edirik!**